**Respublika**. - 2024.- 30 avqust. - № 186. - S. 7.

# COP29: hədəflərin həyata keçirilməsini mümkün edən tədbir

***BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsində dünya ictimaiyyətinin diqqəti Azərbaycana yönəlib. 2024-cü il noyabrın 11-22-də keçiriləcək əsas tədbirdən 11 ay əvvəl həm hökumət, həm də müvafiq qurumlar səviyyəsində intensiv hazırlıq prosesinə başlanılıb. Qeyd edək ki, Azərbaycanın COP-a sədrliyi bu il noyabrın 11-də başlayacaq və gələn ilin noyabr ayında Braziliyada sona çatacaq.***

Azərbaycanın konfrans çərçivəsində müəyyən etdiyi vəzifələr nəzərəçarpan dərəcədə iqlim dəyişmələrinin baş verdiyi dövrdə qlobal əhəmiyyətə malikdir. Tədbirin əhəmiyyətini və onun miqyasını nəzərə alaraq, ölkəmizin qarşıya qoyduğu prioritet və gözləntiləri barədə Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, COP29-un Azərbaycan üzrə baş danışıqçısı Yalçın Rəfiyevlə söhbət etdik.

**–Yalçın bəy, COP29 çərçivəsində Bakının iqlim və enerji layihələri barədə ətraflı məlumat verməyinizi xahiş edirik.**

–COP çərçivəsində bir neçə istiqamətdə hazırlıq işləri davam etdirilir. Birincisi, danışıqlar istiqamətidir ki, burada üzv dövlətlərlə əlaqədəyik, çalışırıq ki, yekun kollektiv kəmiyyət hədəfinə nail olaq. İkinci əsas mühüm istiqamət enerji və iqlim ilə bağlı layihələr, təşəbbüslər məsələsidir. Burada iki kateqoriya ayrılır. Birinciyə COP Sədrliyinin, yəni Azərbaycanın təşəbbüs və layihələri daxildir. Bununla əlaqədar 14 təşəbbüs elan etmişik. Bunlardan bəziləri enerji ilə bağlıdır, misal üçün "yaşıl enerji" saxlancları, "yaşıl enerji" dəhlizləri, təmiz hidrogenlə bağlı layihələrimiz var. Bundan əlavə, əgər iqlimlə əlaqədar olan digər layihələri kateqoriyalara bölsək, bunlardan bəziləri adaptasiya, insan kapitalı ilə bağlıdır. Burada əsas komponent İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirməsidir (PISA). Burada 15 yaşlı məktəblilərin ümumi dünyagörüşü və biliklərinin qiymətləndirilməsi aparılır. Azərbaycan artıq uzun illərdir bu qiymətləndirmədə iştirak edir, oxu, riyaziyyat və digər istiqamətlər üzrə şagirdlərin bilikləri yoxlanılır. Təklifimizə əsasən, 2029-cu ildəki qiymətləndirmədə, həmçinin şagirdlərin ətraf mühitə dair bilikləri yoxlanılmalıdır. Təşəbbüsümüzün əsas mahiyyəti məhz bundan ibarətdir. Hazırda bu təşəbbüs üzərində OECD ilə birgə iş aparılır.

Digər bir layihəmiz "Harmoniya" adlanır və kənd təsərrüfatı ilə bağlıdır. Bu layihəni BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birlikdə həyata keçiririk. Bu, indiyə qədər qeyd olunan istiqamətdə COP-lar içərisində irəli sürülmüş təşəbbüslərin əlaqələndirilməsini, onların arasında harmoniyanın qurulmasını nəzərdə tutan bir təşəbbüsdür. Daha bir təşəbbüsümüz şəhərsalma ilə bağlıdır. Yəni bundan sonra salınacaq şəhərlərdə, həm Azərbaycanda, həm də dünyanın digər hissələrində iqlim amili, daha çox "yaşıl zonalar"ın yaradılması, "yaşıl enerji"dən istifadə edən şəhərlərin sayının artırılması, bərpaolunan enerjidən istifadə edən nəqliyyat vasitələrinin çoxaldılması, hətta binaların tikilməsi zamanı istifadə olunan materialların ekoloji təmiz, iqlimə uyğunlaşan olması, "təbiət dostu" olan elementlərdən istifadə nəzərdə tutulur.

Çox mühüm təşəbbüslərimizdən biri maliyyə istiqamətində İqlim Fəaliyyəti Fondunun yaradılmasıdır. İndiyə qədər iqlimlə bağlı təşəbbüslərin maliyyələşməsi üçün uyğun mənbə formalaşmayıb. Dünya Bankında kifayət qədər maliyyə var, lakin dövlətlər üçün onlara çıxış əlçatan deyil. Misal üçün Karib hövzəsində yerləşən istənilən dövlətdə təbii fəlakət baş verdiyi zaman onlar Dünya Bankına və ya iqlim fondlarına müraciət edirlər ki, həmin fəlakətin nəticələrinin aradan qaldırılması, bərpası məqsədilə vəsait ayrılsın. Lakin buna cavab təxminən 1-2 il ərzində gəlir. Bu da həmin dövlətlər üçün artıq lazımsız olur. Yəni Dünya Bankında, fondlarda olan bürokratiya buna imkan vermir. Bizim təsis edəcəyimiz Fond məhz bu cür bürokratiyadan uzaq yuxarıda qeyd etdiyim fəlakətlərə cavab olaraq dərhal çevik vəsait ayrılacaq. Ən vacib mahiyyət isə bunun İnvestisiya Fondu olmasıdır, yəni bura qoşulan dövlət və özəl sektor təmsilçiləri dünyada iqlim ilə bağlı investisiyaya ehtiyac duyan dövlətlərə sərmayə yatıracaq və bundan əldə olunan gəlir yenidən fonda qayıdacaq, dövriyyədə olacaq. Hətta əldə edilən qazancın təxminən 20 faizi müəyyən bir maliyyə mexanizmində toplanacaq.

Digər bir vacib qlobal təşəbbüsümüz "COP atəşkəsi"dir. Bu barədə artıq müəyyən açıqlamalar verilib. Onun mahiyyəti COP dövründə dünyada bütün münaqişələrdə atəşkəsin elan edilməsidir. Bu, bir o qədər real görünməsə də, tərəflərin buna nə dərəcədə riayət edəcəyi sual doğurur. Bunun sülh ilə bağlı olması məsələnin bir tərəfidir. Bu təşəbbüs həm də karbon qazlarının emissiyasının azalmasına xidmət edir. Çünki məlumdur ki, dünyada qlobal emissiyaların 5-6 faizi hərbi fəaliyyətin payına düşür. Bu təşəbbüsü elan etməklə biz həm dünyada sülh gündəliyinə töhfə verir, eyni zamanda emissiyaların azalmasına xidmət edirik.

**–Paris Sazişinin 6-cı bəndi ilə əlaqədar COP Sədrliyinin əsas istiqamətləri və Yeni Kollektiv Kəmiyyət Hədəfi (NCQG) barədə məlumat oxucular üçün maraqlı olar.**

–Danışıqlar istiqaməti üzrə iki əsas gözləntimiz var. Birincisi, Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə bağlı, ikincisi isə Paris Sazişinin 6-cı bəndi, yəni karbon bazarları ilə əlaqədar qərarın qəbuludur. Hər iki qərar qlobal mənada çox vacibdir, çünki 2009-cu ildə keçirilən COP zamanı qərar qəbul olunub ki, bütün dövlətlər inkişaf etməkdə olan dövlətlərə illik əsasda 100 milyard ABŞ dolları həcmində vəsait ayırsınlar. Bu vəsait həmin dövlətlərdə həyata keçiriləcək iqlimlə bağlı tədbirlərin icrasına yönəldiləcək. Həmin dövrdən artıq 15 il keçir, bu məbləğ də təbii olaraq artır. Hazırda danışıqlar məhz bu istiqamətdə aparılır: həm yeni rəqəmin müəyyənləşdirilməsi, həm də bu məbləği kim ödəyəcək. Hər iki məsələ ilə bağlı dövlətlər arasında böyük ziddiyyətlər var. Bir qrup dövlətlər bəyan edirlər ki, 100 milyard ABŞ dollarından daha yüksək rəqəm ödəməyə hazırıq, o halda ki, inkişaf etməkdə olan ölkələrdən bəziləri kifayət qədər imkana malikdir, onlar da bu məbləği ödəsinlər. Ödəməyəcəkləri təqdirdə, biz rəqəmin çox da yüksəldilməsinin tərəfdarı deyilik. Çünki həmin vəsaiti ödəmək o qədər də asan məsələ deyil. Digər bir qrup isə deyir ki, bunu yenə də inkişaf etmiş ölkələr əvvəlki qaydada ödəməlidirlər, çünki tarixi məsuliyyət, emissiyaların artımı, sənayeləşmə əsasən o dövlətlərin üzərindədir və onlar ödəməlidirlər.

Paris Sazişinin 6-cı maddəsi ilə bağlı qeyd edim ki, karbon bazarları dedikdə, hər bir ölkənin elan etdiyi illik emissiya miqdarı ilə bağlı planları var. Ölkə var ki, bərpaolunan enerjiyə yatırım hesabına emissiyaları azaltmağa nail olur. Bu azaldılan miqdarı karbon vahidləri şəklində digər ölkələrə sata bilir. Onlar öz kvotalarında bunu nəzərə alırlar, bu halda müəyyən bazar yaranır. Hazırda dünyada 6-cı maddə ilə bağlı dövlətlər arasında könüllü bazar mövcuddur ki, dövriyyəsi 2.5 milyard ABŞ dolları təşkil edir. Əgər tənzimlənən bazar yaranarsa, hansı ki, bununla bağlı Bakıda qərar qəbul oluna bilər, bu vəsaitin 200-300 milyard dollara çatacağı ehtimal olunur. Bu zaman qiymətlər tənzimlənəcək, ticarət əlaqələri də genişlənəcək. Bu isə təbii ki, əlavə vəsait deməkdir, hansı ki, həmin dövlətlərdə ehtiyacların ödənilməsi üçün əlavə xərclərə yönəldilə bilər.

**–Azərbaycan, BƏƏ və Braziliyanın təşəbbüskarı olduğu "üçlük mexanizmi" çərçivəsində əməkdaşlıqla bağlı hansı gözləntilər var?**

–Öncə qeyd edim ki, "üçlük mexanizmi"nin təşəbbüskarı Birləşmiş Ərəb Əmirlikləri olub. Növbəti COP-un Azərbaycanda keçiriləcəyi bəlli olduqdan sonra biz ev sahibi olaraq bu mexanizmi davam etdirməyi qərara aldıq. Bizim təşəbbüsümüz budur ki, gələn il Braziliyada keçiriləcək COP-dan sonra bu "üçlük" ənənəsi davam etsin. Prioritet bundan ibarətdir ki, hər bir ölkə növbəti 5 il üçün iqlimlə bağlı Milli Öhdəliklərini elan edir. 2025-ci ildə bunun növbəti mərhələsi olacaq, daha ambisiyalı hesabatlar, öhdəliklər gözlənilir. Bu üçlüyün əsas mandatı digər dövlətlərə bu istiqamətdə yardım etməkdir, bura həm texniki təlimlər vasitəsilə, həm BMT-ni səfərbər etməklə, həm də məsələnin siyasi əhəmiyyətini daha da önə çəkərək ölkələri məcbur edəcəyik ki, öhdəliklərini yeniləsinlər.

Məsələn, Azərbaycanın 2030-cu il üçün müəyyən etdiyi hədəfləri var, 2040-cı il üçün karbon emissiyalarının 35 faiz azaldılması, 2050-ci il üçün SOCAR-ın "net zero" hədəfi. Artıq yeni elan edəcəyimiz öhdəliklərə görə, bu rəqəmləri artırmağı düşünürük. Biz üçlük ölkələri olaraq digər dövlətləri daha da təşviq edirik, həvəsləndiririk.

İqlim mövzusu Azərbaycan üçün kifayət qədər yenidir. Bunun da subyektiv və obyektiv səbəbləri var. Lakin hazırda ölkə başçısı İlham Əliyevin təlimatına uyğun olaraq qlobal gündəlikdə duran məsələlərlə bağlı Azərbaycanın daha güclü mövqeyi formalaşır ki, iqlim danışıqları bunlardan biridir. Əsas çətinliyimiz ondan ibarətdir ki, iqlim mövzusu artıq kifayət qədər siyasiləşmiş mövzuya çevrilib. Dünyada iqlimə yanaşmada fərqli qütblər var. Ümumilikdə, 17 danışıqlar qrupu fəaliyyət göstərir, bu da ondan xəbər verir ki, 17 fərqli mövqe var. Həmin mövqeləri bir araya gətirib yekunda müəyyən sənədləri razılaşdırmaq Azərbaycanın öhdəliyidir. Burada qərarların qəbulu üçün platforma yaradacağıq, yəni məsuliyyət hər bir ölkənin ayrılıqda öz üzərinə düşür.

**–BMT bu istiqamətdə nə kimi köməklik göstərir və COP29-un səmərəli təşkilində dövlət qurumları və QHT-lərin birgə fəaliyyətini təmin etmək məqsədilə hansı tədbirlər həyata keçirilir?**

–İlin əvvəlində COP-a hazırlıq prosesi başlayanda qərar verdik ki, BMT sistemi ilə səmərəli əməkdaşlıq edək. Bununla əlaqədar, təşkilatın Baş katibinə məktub ünvanlayaraq xahiş etdik ki, BMT Azərbaycan hökumətinin təşəbbüsləri ilə bağlı səfərbər edilsin və birgə aparat qurulsun. Müsbət cavab aldıqdan sonra BMT Baş katibinin təlimatı ilə təşkilatın 35 qurumunu əhatə edən İşçi qrupu yaradıldı. Həmin qrupun həmsədrləri BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreeva və BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartdır. Bu iki şəxsin rəhbərliyi ilə BMT-nin 35 qurumunun hər biri ilə diplomatlarımız və müvafiq təşkilatların əməkdaşları təxminən 7-8 aydır ki, birlikdə işləyirlər. Təşəbbüslərin hər birinin ərsəyə gəlməsində onların böyük rolu olub. Kənd təsərrüfatı ilə bağlı təşəbbüsü BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO),

şəhərsalma ilə bağlı layihəni BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat), digər istiqamət su ilə bağlı olan tədbirləri BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNECE) ilə birlikdə hazırladıq. Bu istiqamətdə BMT-nin təcrübə və ekspertizasından istifadə edirik. Bakıda və kənarda təşkil etdiyimiz tədbirlərdə kiçik ada dövlətlərindən və inkişaf etməkdə olan ölkələrdən gələn bəzi həmkarlarımızın səfər xərcləri məhz BMT tərəfindən qarşılanır. Bu da prosesə dəstək məqsədi daşıyır, həm də ölkələrin inkişafına yardım məsələsində BMT-nin məsuliyyətindən yaranan fəaliyyətdir.

Bakıda COP29 zamanı təxminən 65 sənədin müzakirəsi nəzərdə tutulur. İldən-ilə iqlim problemləri artdıqca, iqlim dəyişmələri daha qabarıq şəkildə özünü büruzə verir, qəbul olunan qərarların, reaksiyaların şaxələnməsi zərurəti ortaya çıxır, çünki fərqli problemlər yaranır. Bununla əlaqədar, Bakıda keçiriləcək COP29-un əhəmiyyəti böyükdür, həm də bu, hədəflərin həyata keçirilməsini mümkün edən tədbirdir. Bundan öncə qəbul olunan qərarlar yalnız kağız üstündə qalırdısa, Bakı COP-u bu hədəflərin reallaşması üçün maliyyənin əldə edilməsi sahəsində qərar verməyin vacibliyini önə çəkəcək. Yəni istənilən ambisiyanın icrası üçün vəsait lazımdır, həmin maliyyə olmadığı halda ölkələrdən öhdəliklərini yerinə yetirməyi tələb etmək mümkün deyil. Maliyyə olmadığı halda ölkələr ambisiyaları artıra bilməz, bunun üçün vəsait çox önəmlidir.

**Müsahibəni apardı:**
**Aygün İbrahimova**